Respublika.- 2019.- 21 noyabr.- S.5.





# Azərbaycan ədliyyəsinin şanlı tarixi və bu günü

**Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan Respublikasının ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində xüsusi əhəmiyyətə malik olduğuna görə Ədliyyə Nazirliyi dövlətimizin yarandığı gün - 1918-ci il may ayının 28-də təsis edilmişdir. Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.**

1920-ci il aprel ayında Sovet Rusiyasının XI ordusu Azərbaycan Xalq Cümhuriyyətini işğal etdikdən sonra ədliyyə orqanlarının dəfələrlə ləğv edilib yenidən yaradılması bu sistemin sabit struktura malik olmasına və işinin təşkilinə maneçilik törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edilmiş, nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Azərbaycan ədliyyəsi ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da ulu öndər Heydər Əliyevin diqqətindən kənarda qalmamış, 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ümummilli liderin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.

Azərbaycan ədliyyəsinin ənənəvi fəaliyyət istiqamətlərindən biri məhkəmə ekspertizasıdır. Ölkəmizdə məhkəmə ekspertizasının formalaşması və inkişafı sovet dövründən başlayır. Belə ki, 1938-ci ilin avqust ayında Azərbaycan SSR Xalq Komissarlığı nəzdində kriminalistika kabinetində keçirilən ekspertizalar qrafoloji ekspertizalardan ibarət olmuşdur. 1950-ci ilin iyun ayında SSRİ Nazirlər Sovetinin sərəncamı ilə həmin kabinet ləğv edilmiş, bundan sonra respublika məhkəmə-istintaq orqanları üçün ekspertizalar Gürcüstan elmi-tədqiqat kriminalistika laboratoriyasında həyata keçirilmişdir. 1956-cı ilin iyununda Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamı ilə üç nəfərdən ibarət ştatla Bakı elmi-tədqiqat kriminalistika laboratoriyası yaradılmışdır. Dörd il sonra - 1960-cı ilin dekabrında həmin laboratoriyanın əsasında Azərbaycan SSR Nazirlər Sovetinin hüquq komissiyası yanında Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutu təşkil olunmuşdur.

1991-ci il iyulun 30-da institutun adı dəyişdirilərək Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu adlandırılmışdır. Bu institut keçmiş SSRİ məkanında mövcud olan bu tipli yeddi elmi mərkəzdən biri kimi, güclü maddi-texniki bazası və təcrübəli, peşəkar kadr potensialı olması ilə seçilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli fərmanı ilə sözügedən institut Məhkəmə Ekspertizası Mərkəzi adlandırılmış və baş idarə səlahiyyətli qurum kimi təsdiq edilmişdir.

Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu hüquqi islahatları uğurla davam və inkişaf etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ədliyyə sisteminin inkişafı üzrə görülən tədbirlər çərçivəsində Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyəti təkmilləşdirilmiş, maddi-texniki bazası möhkəmləndirilmiş, mərkəz dünyanın ixtisaslaşmış aparıcı şirkətlərinin istehsalı olan müasir kriminalistik avadanlıqlarla təchiz olunmuş və yeni laboratoriyalar yaradılmışdır.

Son dövrdə müasir texnologiyaların və elmi-texniki tərəqqinin açdığı imkanlardan yararlanaraq ekspertiza tədqiqatlarının dolğun və dəqiq aparılmasına, rəylərin mötəbərliyinin təmin olunmasına, yeni növ ekspertizaların keçirilməsinə və akkreditasiya nəticəsində ekspert rəylərinin beynəlxalq miqyasda tanınmasına nail olunmuşdur. Eyni zamanda, məhkəmə-istintaq orqanlarına köməklik və ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədi ilə Mərkəzin Gəncə, Şirvan, Şəki və Lənkəran regional filialları yaradılmışdır.

Qeyd edilməlidir ki, il ərzində Mərkəz tərəfindən 41 ekspert ixtisası üzrə yüz minlərlə suala cavab verilir və bu zaman qaldırılan məsələlərin həll olunma əmsalı 100 faizə yaxındır. Həmçinin, məhkəmə ekspertizası və kriminalistikanın aktual məsələlərinə dair mütəmadi metodik vəsaitlər hazırlanır, cinayətin baş verməsinə səbəb olan şəraiti və halları aşkar etmək, onların qarşısını almaq üçün kriminoloji tədqiqatlar aparılır, məhkəmə-istintaq orqanlarına profilaktik tövsiyələr verilir. Ekspertiza sahəsində beynəlxalq əməkdaşlıq genişlənmiş və Mərkəz Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinə (ENFSI) üzv qəbul edilmiş, ekspertiza növlərindən 4-nün (6 ixtisas, 16 metod) beynəlxalq standartlara cavab verməsi ilə bağlı müvafiq sertifikatlara layiq bilinmişdir.

Məhkəmə ekspertizası təsnifatı beynəlxalq təcrübəyə uyğunlaşdırılmış, ekspert ixtisasının verilməsi işinin daha müasir prosedurlar əsasında həyata keçirilməsi, ekspert kadrların maddi və mənəvi marağının gücləndirilməsi, onların peşəkarlıq səviyyəsinin təsdiq edilməsi məqsədi ilə yeni normativ-hüquqi baza yaradılmışdır. Mərkəzin spesifik fəaliyyət xüsusiyyətləri nəzərə alınaraq qulluğa qəbulu tənzimləyən xüsusi qaydalar qəbul edilib, ekspert kadrların işə qəbulu açıq müsabiqə əsasında aparılır.

Ölkə başçısının 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətinin beynəlxalq standartlara uyğun qurulması məqsədilə infrastrukturunun müasirləşdirilməsi üzrə tədbirlər görülür.

Ədliyyə və məhkəmə sisteminin inkişafının mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində həmçinin, mülki işlər, habelə inzibati xətalara, iqtisadi və inzibati mübahisələrə dair işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, məhkəmə prosesi tərəflərinin ekspertiza təyin edilməsi ilə bağlı hüquqlarının genişləndirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi üzrə müvafiq qanunvericilik layihələri hazırlanmışdır.

Dövlətimizin qüdrətlənməsində mühüm şərtlərdən biri də onun hər cür cinayətkar qəsdlərdən qorunmasıdır. Bu sahədə Məhkəmə Ekspertizası Mərkəzinin də üzərinə böyük məsuliyyət düşür. Artıq 20-ci ildir ki, öz peşə bayramlarını böyük ruh yüksəkliyi ilə geniş qeyd edən ədliyyə işçiləri bundan sonra da dövlətimizin hərtərəfli inkişafı naminə dövlət başçısının ətrafında sıx birləşməklə üzərilərinə düşən vəzifələri bundan sonra da uğurla yerinə yetirmək əzmindədirlər.

**Hümmət VƏLİYEV,**
**Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı.**